## *PSİXOLOGİYA VƏ KORREKSİYA PEDAQOGİKASI*

# HUMANİZM TƏRBİYƏSİ VƏ ONUN SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Ramiz Əliyev**,
*psixologiya üzrə elmlər doktoru, professor*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
E-mail: ramizeliye1954@mail.ru]

***Açar sözlər:*** *şəxsiyyətin formalaşması, inkişaf, fərdiyyət, motivasiya, fəaliyyət istiqamətləri, psixi inkişaf*
***Ключевые слова:*** *формирование личности, развитие, индивидуализация, мотивация, направления деятельности, психическое развитие*
***Key words:*** *formation of personality, development, individiuality, motivation, activity direction, mental development*

İnsan cəmiyyəti yarandığı vaxtdan bu günədək insanlığın keçdiyi ictimai-tarixi proseslərdən asılı olaraq şəxsiyyət formalaşdırmaq mühüm vəzifə kimi qarşıya qoyulmuşdur. Tərbiyə etmək, övlad böyütmək, onu layiqli vətəndaş kimi görmək hər bir valideynin arzusu, məktəbin vəzifəsi olmuşdur. Bəs, necə olur ki, biz bir çox hallarda istəyimizə nail ola bilmirik? Təbii ki, səbəblər çoxdur. Hər kəs humanist, saf təbiətli şəxsiyyət formalaşdırmağa çalışır.

Humanizm ideyası bütün dövrlərdə siyasi xadimləri, dövlət başçılarını, filosof və pedaqoqları, sosioloq və psixoloqları, eləcə də adi peşə sahiblərini düşündürmüşdür. Maraqlı burasındadır ki, zaman-zaman, ictimai-tarixi, siyasi, iqtisadi vəziyyətlərdən asılı olaraq bu məsələlərə münasibət dəyişmiş, bir-biri ilə ziddiyyət təşkil edən əks mövqelər ortaya qoyulmuş, diskussiyalar aparılmışdır. Tarixin müəyyən dövrlərində humanizm, ədalət, azadlıq, insan hüquqları adı altında irəli sürülən fikir və ideyalar hətta praktikada tətbiq olunmuşdur. Onun doğruluğunu sübut etmək üçün tamaşalar qoyulmuş, poema və romanlar yazılmışdır, bir sözlə, ideyanın həyata keçirilməsi, insanların şüuruna yeridilməsi üçün təbliğat maşını işə salınmışdır. Filosoflar, görkəmli mütəfəkkirlər belə humanizmi fərqli şəkildə qavrayış, dərk etmiş, onun inandırıcı dəlilər ilə sübutuna çalışmışlar.

Bu da həqiqətdir, qanunauyğunluqdur. Çünki heç bir absolyut həqiqət olmur. Məşhur alimlər C. Freydman və R. Frayqer yazırlar: "Hər bir məşhur nəzəriyyəçi insan təbiətinin müəyyən bir cəhətini aydınlaşdırmışdır. Hesab edilir ki, hər bir nəzəriyyəçi özlüyündə haqlıdır və öz sahəsi üzrə diqqəti cəlb edir. Onların əksəriyyətinin səhvi ondan ibarətdir ki, yalnız özlərinin baxış və yanaşmalarının ümumi, hərtərəfli, doğru olduğunu zənn edirlər. Şəxsiyyət nəzəriyyəsi yaradıcıları arasındakı fikir ayrılığı tarixi şəraitdən də yaranmışdır. Psixopatologiyaya əsaslanan nəzəriyyələr empirik nəzəriyyələrə, idrak fenomeninə əsaslanan nəzəriyyəçilər də digərlərinə əhəmiyyət verməmişlər. Fikrimizcə, hər bir nəzəriyyəçi bütövün, tamın bir hissəsi haqqında dərin təsəvvürlərə malikdir və onun dediklərinin tamın bir hissəsi olmasına inanmaq istəmir. Eləcə də digərləri inanmaq istəyirlər ki, onların dedikləri ya tamdır və ya tamın əsas hissəsidir".

İstər islam dinində, istərsə də Şərq fəlsəfəsi fikrində şəxsiyyətin formalaşdırılması, həyatın mənası və sairə bu kimi problemlər daim diqqət mərkəzində olmuşdur. Həyatın hər üzünü görmüş arif və müdrik bir şəxsiyyət , həyat müəllimi olan Həzrət Əlinin nəsihət və öyüdlərinin bu günümüz üçün də misli yoxdur.

- İnsanlar öz ata analarından daha çox zəmanələrinə oxşayırlar.
- Şəxsiyyətin ən yaxşı cəhəti əxlaqidir.
- Ən böyük dövlət ağıl, ən böyük yoxsulluq nadanlıqdır.

Göründüyü kimi, Həzrət Əli insanı özünüdərkə, saflaşmağa dəvət edir. O göstərir ki, insan rəzil işlərdən uzaq olmalı, insaf və ədaləti əldən verməməlidir.

Buddizmə görə həyatda iki şey var: səbəb və nəticə. Nəticə iztirabdır. Səbəb isə həyat se-

vinclərinə, dünya nemətlərinə bağlılıqdır. İnsanın borcu, vəzifəsi iztirabdır xilas olmaqdır. Buna nail olmaq üçün naz-nemətdən, sərvət və mənfi emosiyalardan - paxıllıq, xəsislik, kin-küdurətdən, xəbərçilikdən təmizlənmək lazımdır.

Şərq fəlsəfi fikrində xeyirlə şər, yaxşılıqla pislik qarşı-qarşıya qoyulur, yaxşı adamlara məhəbbət, pislərə nifrət aşılanır. Hesab edilir ki, insanın zahiri görünüşü deyil, onun mənəviyyatı başlıca şərtdir. İnsanlıq var-dövlət, vəzifə deyil, insanlıq şərəfi xalqa xeyirli olmaqdır.

Sədi Şirazi insanın davranışı, daxili dünyası, hansı keyfiyyətlərə malik olması, nələrdən qaçması, özünü necə aparması məsələlərinə ciddi fikir verilməsini söyləyir və özü də onun yollarını göstərir: "Hədsiz sərtlik dəhşət yaradır, yersiz mülayimlik hörmət azaldır. Nə elə sərt ol ki, səndən qaçsınlar , nə elə yumşaq ol ki, üzünə qabarsınlar" (5, 243).

İnsan haqları, sosial bərabərlik və s. barədə fərqli fikirlər olmuşdur. Məsələn, Nizami Gəncəvi var-dövlətin bərabər bölünməsini, heç kimin heç kimdən artıq olmadığı ideyasını irəli sürürdü.

J.J. Russo isə sosial bərabərlik ideyasını qəbul etməmişdir. O yazırdı: "İnsan azad doğulmuşdur, ona görə də qolları zəncirdədir".

J.J. Russo qeyri-bərabərliyi iki qrupa ayırır: a) təbiətin özündən gələn, b) siyasi, mədəni qeyri-bərabərlik. "Mən insanlıqda iki qeyri-bərabərlik görürəm. Bunlardan birinci təbiidir və yaş, sağlamlıq, əqli, fiziki güc və s. ilə bağlıdır. İkincisi mühit və siyasi quruluş ilə bağlıdır. İkincisi insanların özlərinin razılığı, yaratdığı qeyri-bərabərlikdir. Bu isə bəzi insanlara digərləri üzərində ağalıq etmək, varlı olmaq, nüfuz qazanmaq imkanı yaradır" (4, 41).

Psixologiyanın mühüm bir sahəsi olan dini psixologiya insanın ruhi aləmini öyrənir. Onların fikrincə ruhi aləm insanın üzləşdiyi çətinliklərin, maneələrin götürülməsində, dəf olunmasında, özünü təsdiq etməsində, istəklərinin reallaşmasında insana güc verir.

Humanist psixologiyanın əsasında isə insana inam, sevgi durur. Onların fikrincə sevgi, yaradıcılıq, inkişaf, mənəvi dəyərlər, həyatın mənası və s. insan tələbatının əsasını təşkil edir. V. Frankl göstərir ki, həyata maraq itdikdə və ya olmadıqda insan darıxır, gərginlik keçirir, nəhayətdə uğursuzluqlara düçar olur.

Göstərilən bu nəzəriyyələr bir-biri ilə ziddiyyət təşkil edir. Hansı daha doğrudur? Əlbəttə ki, hamısı. Çünki, insanın təbiətində bunların hamısı var. Kimdəsə birisi, digərində isə başqası daha çoxdur.

Antik yunan filosofları deyirdilər ki, həyatda mümkün olmayan şeyləri əldə etməyə çalışan hər kəs quldur. Bununla yanaşı qeyd edirdilər ki, insan ruhunun azadlığı yalnız özündən, öz taleyindən razılıq deyil, həm də həyat səni qane etmədikdə ondan ləyaqətlə getməkdir. Tale insanın həyatını əlindən ala bilər, lakin öldürə bilməz. Seneka Lusiliyaya məktubunda yazırdı ki, vacib deyil ki, ömür uzun və ya qısadır. Vacib olan odur ki, o ləyaqətlə yaşansın. Ləyaqətlə yaşamaq, ləyaqətli olmaq insanın daxili, ruhi azadlığından keçir. Lakin çox təəssüf ki. bir çox hallarda insanlar öz iradələrini başqalarına zorla qəbul etdirməyə çalışırlar. Hətta valideynlər bir çox hallarda özlərinin və övladlarının xoşbəxtliyini onların özlərinin istədiyi kimi tərbiyə etməkdə, daha doğrusu övladlarını özlərinin istədiyi kimi olmaqda görürlər. Bəs həmin uşağın özü, öz istədiyi necə olsun? Vaxtilə F.M. Dostoyevski yazırdı: "İnsan öz hakimiyyətini digər insanlar üzərində tətbiq etdikdə qəddarlaşırlar, tirana çevrilir".

Artıq sübut olunmuş həqiqətdir ki, uşağın tərbiyəsi ilə lap körpə vaxtlardan məşğul olmaq lazımdır. Sədi göstərirdi ki, tərbiyə işi ilə körpəlikdən, həm də çox məşğul olmaq, onların əxlaqının gözəlliyinə fikir vermək lazımdır.

Kiçik ikən bir uşaq edilməzsə tərbiyə,
Böyüyəndə görünməz onda ədəb, nəzakət.

Tərbiyə işində hamıya şamil olunan, tətbiq edilə bilən hazır resept yoxdur. Biri üçün məqbul hesab edilən, fayda verə bilən tərbiyə üsulu digəri üçün tamamilə yararsız ola bilər. Bununla belə hamının istinad edə biləcəyi müəyyən qaydalar da vardır.

Tərbiyə işindəki çətinliklərdən biri də onun nəticəsinin gec, onilliklərdən sonra özünü göstərməsi ilə bağlıdır. Uşaq vaxtı buraxılan səhvlər yeniyetməlik, gənclik, hətta daha sonralar özünü göstərir. Uşaqların tərbiyəsi insan fəaliyyəti içərisində xüsusi yer tutur. Görkəmli mütəfəkkirlər tərbiyəni insanlığın ən mürəkkəb problemi hesab edirlər. Göstərirlər ki, tərbiyə işində insanlığın ən vacib sirləri gizlənir. Lakin nədənsə insanlar bu vacib, mürəkkəb işə az diq-

qət yetirirlər. Qədim dövrlərdə uşaqların tərbiyəsi ilə qullar, orta əsrlərdə özünə başqa sərfəli iş tapa bilməyən müəllimlər məşğul olurdular. Müasir dövrdə isə insanların çoxu onu sadə və asan iş hesab edirlər. Valideynlər tez-tez öz uşaqlarının tərbiyəsini xidmətçilərə tapşırır, özləri bu işdən kənarda qalırlar. Müəllimlərin də bir çoxu tərbiyə işini sadə hesab edir, fikirləşirlər ki, bu sahədə onlar hər şeyi bilirlər.

Vaxtilə V.A. Suxomlinski yazırdı ki, tərbiyə işində tənbəllik etmək olmaz. Həkim xəstənin həyata qaytarılması üçün son anadək mübarizə apardığı kimi, müəllim və valideynlər də bu işdən bezməməlidirlər, son anadək mübarizə aparmalıdırlar. Əgər şagird intizamı pozursa, özünü "pis" aparırsa onu sinifdən qovmaq, sərt cəza tətbiq etməklə işini bitmiş hesab etmək səhv yoldur. Obrazlı şəkildə desək otağa girmək üçün qapını sındırmaq yox, onu açarla açmaq lazımdır. Uşaq qəlbinə də zorakılıqla yox, məhəbbətlə yol tapmaq lazımdır.

K.D. Uşinksi yazırdı ki, çoxlarına elə gəlir ki, tərbiyə işi çox asandır və hər kəs onu bacarır. Bu sahədə nəzəri və praktik hazırlığı olanlar bilirlər ki , tərbiyə işi səbir tələb edən mürəkkəb bir işdir. Bəzilərinə görə tərbiyə işi ilə məşğul olmaq üçün anadangəlmə qabiliyyət olmalıdır. Lakin unudurlar ki, bu sahə üzrə biliklərində olması vacibdir.

Spenser isə yazırdı: "Ayaqqabı tikmək, Lokomotivi, gəmini idarə etmək üçün xüsusi bilik və təhsil almaq tələb olunur. İnsan qəlbini, ruhunu öyrənmək, tərbiyə etmək o qədərmi sadədir ki, bunun üçün xüsusi hazırlıq lazım gəlməsin?". Spenserə görə, müəllimlər bu sahə üzrə xüsusi bilik və səriştəyə malik olmalıdırlar.

S. Xollun fikrincə, uşaqları başa düşməməkdən də pis başqa bir şey ola bilərmi? Axı, bu köməksiz, valideyn qayğısına ehtiyacı olan uşağın psixikasını, ruhunu öyrənmədən onu necə tərbiyə etmək olar?

Görkəmli pedaqoq və filosoflar (Komenski, Pestalotsi, Kant və b.) göstərirlər ki, insan yalnız tərbiyə nəticəsində insan olur. Valideynlərin, cəmiyyətin təsiri daha çoxdur, nəinki təbiətin bəxş etmədiyi qabiliyyətlər. Valideynin, müəllimin mənəvi borcu isə tərbiyə işini düzgün təşkil etməkdən ibarətdir.

Bunlarla yanaşı, uşağın fərdi xüsusiyyətləri də nəzərə alınmalıdır. Elə uşaqlar vardır ki, onlar xüsusi diqqət və qayğı tələb edirlər. Onlar başqalarına bənzəmirlər. Məsələ burasındadır ki, çox vaxt belə uşaqlar daha istedadlı olurlar.

Görkəmli psixoloq V.P. Zinçenko bununla bağlı maraqlı bir əhvalat göstərir. O, yazır: "Jurnallardan birinin "Bilik gücdür" adı ilə təşkil etdiyi "Dəyirmi masada", "Fəaliyyət şəxsiyyətin psixi inkişafının əsasıdır" mövzusunda məruzə etməli idim. Elektrik qatarında "İzvestiya" qəzetinə baxarkən diqqətimi bir informasiya cəlb etdi. Məktəblərdən birinin direktoru hazırlıq sinfinin 6 yaşlı şagirdi Lojkin Mixail Vladimiroviçi təlimə hazır olmadığı üçün məktəbdən azad etmişdir. Səbəbini direktor müxbirə belə izah edir ki, Mixail Vladimiroviç tamamilə idarə olunmazdır: gah stolun altına girir, gah da ki, var-gəl edir.

Mən birdən-birə özümü 6 yaşlı Lojkinin qarşısında günahkar hesab etdim" (6, 20).

Problemin bu yöndə kəskinliyi hələ də qalmaqdadır. İctimai şüurda belə bir stereotip qalmaqdadır ki, uşaqları lap körpəliyindən başlayaraq gələcək həyata hazırlamalıyıq.

Bunu valideynlər də, müəllimlər də, uşaq bağçalar da, məktəb də bir şüar kimi irəli sürüb həyata keçirməyə çalışırlar. Belə də uşaq dəyərdən düşür, heç kim onunla hesablaşmaq istəmir. Uşağı həyata kim hazırlamalıdır? Əlbəttə ki, böyüklər. Nəticə də belə bir stereotip formalaşır: "Böyüklər onun üçündür ki, uşağı tərbiyə etsin, təlim versin. Uşaq isə onun üçündür ki, qeyd-şərtsiz böyüklərin istəyini yerinə yetirsin. Böyüklər hesab edirlər ki, onların vəzifəsi uşağın sağlamlığını təmin etsin, təlim-tərbiyə versin. Unudurlar ki, uşaqla oynamaq, onun sevincinə şərik olmaq, onu başa düşmək və s. də onların işidir.

Hazırda hər kəsin – valideynin, tərbiyəçinin uşaqdan istəyi və qiymətləndirməsi təlim müvəffəqiyyəti ilə bağlıdır. Psixoloqlar (D.B. Elkonin, A.V. Zaparojes və b.) bildirirlər ki, hər bir yaş dövrünün öz qanunauyğunluqları vardır. Eyni vaxtda uşaqdan bunların hamısını tələb etmək olmaz.

Oksford Universitetinin professorundan soruşurlar: " Oksford kimi hazırlayırıq?". Professor cavab verir: " Oksford əsl ingilis centlmeni necə olmalıdırsa, onu hazırlayır".

Görəsən biz kimi hazırlayırıq. Əlbəttə, çox şeylər saymaq olar. Amma ola bilər ki, elə söz olaraq qalsın. Uşaqlara nəyi öyrətməliyik?

İlk növbədə sevinməyi, həssas olmağı və s. Təbii ki, tərbiyə işində düzgün bir yol var. Bu da sevgi, qayğı, hörmət və tələbkarlığın vəhdətidir. F.M. Dostoyevski yazırdı: Xoşbəxt uşaqlığı olmayan kəs, mənəviyyatlı ola bilməz".

Humanist psixologiyanın mühüm ideyalarından biri də belədir ki, insanın təbiəti, mahiyyəti onun nə etməsində yox, onu necə dərk etməsindədir. Humanizm, şəxsiyyətin formalaşdırılması, həyatın mənası və s. problemlər XX əsrin 2-ci yarısından başlayaraq daha çox diqqəti cəlb etməyə başlamışdır. Bunun əsasında humanist pedaqogika pedaqogikanın ayrıca bir sahəsinə çevrilmişdir. əlbəttə, bu heç də asanlıqla baş verməmişdir. Onun yaradıcıları çoxsaylı maneələrlə üzləşmişlər. Biz onlardan ikisini – Ş.A. Amonaşvili və V.A. Suxomlinskinin nümunəsində fikrimizi əsaslandırmağa çalışacağıq.

İstər Ş.A. Amonaşvili, istərsə də V.A. Suxomlinskinin pedaqoji ideyalarını belə ümumiləşdirmək olar: əsl pedaqoq heç də o deyil ki, şagirdlərin beynini biliklərlə doldurur, onu inkişaf etdirir, əsl pedaqoq o kəsdir ki, o daim şagirdlərin qəlbinə yol tapmağa çalışır, özü onlarla birlikdə öyrənməyə çalışır, özünü tərbiyə edir. Müəllim o deyil ki, öyrədir, müəllim o kəsdir ki, ondan öyrənirlər.

Ş.A. Amonaşvili ötən əsrin 60-cı illərinin ortalarında Tbilisidə özünün məktəb-laboratoriyasını yaratdı. Lakin 70-ci əsrin ortalarında dəfələrlə "məktəb-laboratoriya"nın bağlanmasına cəhd edildi. Onu nələrdə günahlandırmırdılar. Əlbəttə, daha çox isə "abstrakt humanizmdə". Onun, eləcə də V.A. Suxomlinksinin tərbiyə metodları kommunist tərbiyəsilə ziddiyyət təşkil edirdi.

Bu necə ola bilər ki, Amonaşvili ibtidai siniflərdə qiymət yazılmasının əleyhinə çıxır. Başqa sözlə, "qiymətsiz təlimi" qəbul etmək olmazdı. Amonaşvili nə istəyir və nə edirdi? O, hesab edirdi ki, məktəb həyatına yenicə daxil olmuş uşağın " 2", "3" və s. qiymətlərlə doldurmaq olmaz. Hələ təlimin başlanğıcında uşaqlar arasında rəqabət mühiti yaratmaq doğru deyil. Belə də kimlərsə təriflənir, kimlərsə aşağılanır. Bu vəziyyət uşaqlarda psixoloji diskomfort yaradır.

Amonaşvili uşaqlara izah edirdi ki, nəyi bacarırlar və nə onlarda hələlik alınmır. Yəni şagirdlərə qiymətin yazılmaması heç də uşaqların biliyinin qiymətləndirilməməsi demək deyildir. Başqa sözlə, Amonaşvili uşaqların təlim müvəffəqiyyətinin kəmiyyətini yox, keyfiyyətini qiymətləndirirdi. Bu isə mövcud qaydaların, təlimatların pozulması demək idi.

Belə gərgin vaxtda hər gün "məktəb-laboratoriyanın" əməkdaşlarının ilk sualı belə olurdu: "Bizi hələ bağlamayıblar?". "Yox" cavabını eşidəndən sonra dərsə başlayırdılar. Məsələ burasındadır ki, laboratoriyanın bağlanmasını Maarif Nazirliyi istəyirdi. Şalva Aleksandroviç çıxılmaz vəziyyətlə üzləşmişdi. Həm də laboratoriya Amonaşvilinin direktor olduğu Pedaqogika İnstitutunun elmi bölmələrindən biri idi. Belə çətin bir vaxtda akademik A.V. Petrovskinin "Pravda" qəzetində "İkisiz gündəlik" adlı məqaləsi çap olunur. MK-nin orqanı olan "Pravda "qəzetində çap olunan məqalə " pedaqoji dissidentin " cəzalandırılmasının qarşısını müəyyən müddət alır. Məmurlar əlverişli məqam gözləyirlər. Belə bir məqam ələ düşür, laboratoriyanın bağlanması məsələsi yenidən aktuallaşır.

Belə bir ağır vəziyyətdə digər bir akademik V.V. Davudov işə qarışır. O, "Pravda" qəzetinin məktəb şöbəsində işləyən tanışına müraciət edir. Hər iki akademik işin müsbət həllinə çox da ümid etmirlər. Demək ki, problemin həlli o qədər də çətin deyilmiş.

Sonrasını A.V. Petrovski belə təsvir edir: "O, telefonun dəstəyini götürüb gürcü nazirə zəng edərək Amonaşvilinin çox faydalı olan laboratoriyasının bağlanmasının səbəbini soruşdu. Nazir uzun-uzadı laboratoriyadan narazılığını əsaslandırmağa başladı. Onun Moskvalı həmsöhbəti səbirlə deyilənləri dinlədikdən sonra dedi: "Nə olar ,hər halda bu sizin öz işinizdir, özünüz qərar qəbul edin. Mənə qaldıqda isə biz sizinlə bağlı materialları araşdırırıq. Görək, sizin tabeçiliyinizdə olan yataqxanalarda nələr baş verir. Bizdə bəzi siqnallar var ki... Uzun sürən sakitlik yarandı. Gürcü nazir yataqxanada baş verənləri gözlərinin qarşısında canlandırırdı. Sonra dedi: "Bilirsinizmi, Amonaşvilinin laboratoriyasını bağlamağa heç bir zərurət yoxdur. Heç kim ona mane olmaq istəmir. Mən isə sizə verirəm. Məsələ həllini tapdı" (7).

Amonaşvilinin laboratoriyasını bağlamaq istəyən nazir, ona icazə verdi.

Maraqlıdır ki, xeyir və şər həmişə qarşı-qarşıya olublar. Humanist tərbiyə nəzəriyyəsinin yaradıcılarından biri olan V.A. Suxomlinskinin

vəziyyəti daha acınacaqlı olub. Onu “ Abstrakt humanizm” də ittiham edirdilər.

Çox görkəmli pedaqoq V.A. Suxomlinskinin şəxsiyyət, mənəviyyat, tərbiyə ilə bağlı irəli sürdüyü ideyalar hakim ideologiya ilə ziddiyyət təşkil edirdi.

Suxomlinskinin başlıca ideyası belə idi : “Demokratiya qeyd-şərtsiz tabeçiliklə ziddiyyət təşkil edir”.”Şəxsiyyət azadlığı” həlledicidir və s.

Suxomliskinin bu və ya buna bənzər ideyalarını qəzet və jurnal səhifələrində təhlil edən “Görkəmli alimlər” yazırdılar: “V.A. Suxomlinskinin şəxsiyyət azadlığı ilə bağlı fikriləri marksizmin, kommunist tərbiyəçinin ziddinədir”. “Kommunizm qurucularının əxlaq kodeksi sovet adamının həyat proqramıdır. Suxomlinski tərbiyə ilə bağlı partiyanın tələblərinə qarşı çıxır” vəs.

V.A. Suxomlinski ilə bağlı yazılan belə qarayaxmalar izsiz ötüşmürdü. Açıq və gizli təzyiqlər Suxomlinskini sarsıdırdı. Bununla bağlı onun “Narodnoye obrazovanıye” jurnalının redaktoru A.E. Boyma yazdığı məktub insanı sarsıdır. Aleksandr Yevseviç!

Əgər siz o adama bir neçə söz deyə bilirsinizsə onda mən sizdən xahiş edərdim ona deyin, araqarışdıran. Heç bir burjua qəzetində məni tərifləməyiblər. Əksinə, məni burada tənqid etdikcə onlar sevinirlər.

Siz başa düşməlisiniz ki, mən ilk növbədə müəlliməm. Əgər siz o yaramaza bir neçə söz deyə bilərsinizsə, xahiş edirəm , ona deyin ki, mən nə yazdığımı bilirəm və bunu qanımla yazmışam. Qoy, o gəlsin, mənim yerimdə işləsin. O, iş barədə heç nə fikirləşmir. Mən özümü alim hesab etmirəm, mən ilk növbədə müəlliməm. Necə vətənpərvər olmağı mənə o öyrətməməlidir.

1942-ci ildə mən cəbhədə ağır yaralananda faşistlər mənim arvadımın gözünü çıxarıb, asıblar. Yenicə doğulmuş oğlumu it balası kimi divara çırpıb öldürdülər. Qoy, bilsin ki, mən nə əzablar çəkmişəm. Mənim arvadımı – 22 yaşlı Veranı faşizmin əleyhinə vərəqlər payladığına görə asdılar. Mən indi də bu əzabı çəkirəm. Bax, uşaqlara olan məhəbbətim bundadır. Əgər mən onu görsəydim deyərdim: Araqarışdıran! Onlar kimisə sıradan çıxarmaq istəyirlərsə belə edirlər. Əgər mən dözməyib ölsəm, bilin ki. məni o araqarışdıran öldürüb.

Sizin Suxomlinski.

Məktub 15 dekabr 1969-cu ildə yazılmışdır. 1970-ci ilin sentyabrında V.A. Suxomlinski dünyasını dəyişdi.

Bütün hallarda sonda insansevərlik, mənəviyyatlı olmaq yaşayır. V.A. Suxomlinskinin dediyi o “ araqarışdıranın” adı yoxdur. Əgər olsa da lənətlə salınır yada. Ş.A. Amonaşvili var, V.A. Suxomlinski var, humanist pedaqogika, psixologiya var. Hesab edirik ki, onların, eləcə də humanizmin öyrənilməsi, öyrədilməsi vacibdir.

**Məqalənin elmi yeniliyi**: Məqalələrdə ilk dəfə olaraq humanizm tərbiyəsinin şəxsiyyətin formalaşdırılmasında rolu müəyyənləşdirilir, bu sahədə görkəmli pedaqoq və psixoloqların elmi ideyaları təhlil olunur, müasir dövr üçün onlardan istifadənin elmi-nəzəri əsasları verilir.

**Məqalənin praktik əhəmiyyəti** ondan ibarətdir ki, humanizm tərbiyəsinin psixoloji xüsu-siyyətləri şərh edilir, ondan istifadənin yolları göstərilir. Bunun la yanaşı, onun nəticələrindən müəllim və valideynlər öz fəaliyyətlərində istifadə edə bilərlər.

## ƏDƏBİYYAT


1. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri . Bakı: Azərnəşr, 1981.
2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998.
3. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006.
4. Əliyev R.İ. Etnopsixologiya: qloballaşma və millilik. Bakı: Nurlan, 2007.
5. Sədi Ş. Gülüstan. Bakı: Azərnəşr, 1987

**Р.И. Алиев**

**ГУМАНИСТИЧЕСКОЕ ВОСПИТАНИЕ И ЕГО СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ**

***РЕЗЮМЕ***

В данной статье о гуманистическом воспитании рассматриваются идеи известных педагогов и психологов. Автор отмечает, что гуманистическое воспитание меняется в зависимости от социально-исторических процессов. Воспитание гуманизма начинается с семьи, затем эта работа продолжается в школе. Установлено, что, рассматривая его социально-психологические особенности можно добиться большего успеха.

**R.I. Aliyev**

**THE FEATURES OF SOCIAL-PSYCHOLOGICAL OF HUMANISM EDUCATION**

***SUMMARY***

In the articles about humanist education the ideas of famous pedagogues and psychologists are reviewed. It shows that, humanist education changes depend on the processes of social-historical. Humanism education begins from the family, then this work is continued in the school. It is determined that, when we consider the features of children' private-psychological, it is possible to get the success.

**Redaksiyaya daxil olub:** 19.01.2018